# Azərbaycanla Ermənistan arasında razılaşma ölkəmizin sülhə sadiqliyini, mərhəmət hissinin böyüklüyünü nümayiş etdirir

**Azərbaycan dünyanın böyük dövlətlərinin də "vasitəçilik" yolu ilə həll edə bilmədiyi çoxillik silahlı münaqişə ocağını söndürməklə yalnız Cənubi Qafqaz regionunda deyil, dünyada sülhə və sabitliyə töhfə vermiş oldu. Yaxın keçmişimizdə hər gün ölüm xəbərlərinin gəldiyi, silahların od saçdığı Qarabağ indi böyük bir tikinti meydançasıdır. İllərdir insan nəfəsinə, gülüş səsinə həsrət qalmış yurd yerlərimizdə həyat qaynayır, insanlar doğma evlərinə qayıdırlar.**

Nəticəsindən asılı olmayaraq, bütün müharibələrin bir üzü qələbə sevincidirsə, digər tərəfi qandır, ölümdür, anaların göz yaşı, bacıların, qız-gəlinlərin fəryadıdır.

Azərbaycan istər zəfər müharibəsi, istərsə də sonrakı baş verən hadisələr zamanı böyüklük nümayiş etdirmiş, qaçana imkan, aman diləyənə həyat vermişdir. Ordumuz müharibə zamanı mülki obyektlərə zərər vurmamışdır, yalnız legitim hərbi obyektlər hədəf olmuşdur. Atəşkəsdən dərhal sonra müharibədə həlak olanların cəsədlərinin götürülməsi üçün şərait yaratmış, əsir düşənlərin qeyd-şərtsiz dəyişdirilməsi istiqamətində ədalətli mövqe sərgiləmişdir.

Müdrüklər doğru deyiblər ki, xeyirxahlığın və humanizmin sərhədi olmur. Yamanlığa yaxşılıq etmək həmişə ər kişilərin işi olub. Azərbaycan da birmənalı olaraq düşmənə ərlik, böyüklük göstərmişdir. Qarabağda yaşayan erməni icmasının nümayəndələrinə silahı yerə qoymalarını təklif etmişdir. Amma əks tərəfdə olan revanşist qüvvələr, günahsız insanları qırğına verməkdən çəkinməyən qatillər ara qızışdırmaqla məşğul olmuşlar. Havadarlarının, regionda sabitliyi istəməyən qüvvələrin fitnəkarlıqlarına uyaraq müharibə ocağına od atmaq istəmişlər.

Siyasət həm də hər kəsin anlaya biləcəyi dildə danışmağı bacarmaqdır. Azərbaycan da separatçılarla onların anladığı dildə danışmağı bacarır. Bu bacarıq, daha doğrusu, sentyabrın 19-20-də keçirilən lokal xarakterli antiterror tədbiri nəticəsində artıq regionda yeni reallıqlar yaranıb və Azərbaycan Cənubi Qafqazda real güc mərkəzi kimi tanınır.

Son günlər baş verən hadisələri isə üfüqdə parıltı da adlandırmaq olar. Məlum olduğu kimi, Azərbaycan Respublikası Prezidenti Administrasiyası və Ermənistan Respublikası Baş nazirinin Aparatı birgə açıqlama yayıb. Sənəddə Azərbaycan Respublikası və Ermənistan Respublikası regionda çoxdan gözlənilən sülhün əldə olunması üçün tarixi fürsətin yarandığı fikrini bölüşür. İki ölkə münasibətləri normallaşdırmaq, suverenlik və ərazi bütövlüyü prinsiplərinə hörmət əsasında sülh sazişinə nail olmaq niyyətini bir daha təsdiq edir. Aparılan danışıqlar nəticəsində iki ölkə arasında etimad quruculuğu istiqamətində ciddi addımların atılmasına dair razılıq əldə olunub.

Humanizm dəyərlərini rəhbər tutaraq və xoşməramlı addım olaraq Azərbaycan 32 erməni hərbçinin, Ermənistan isə 2 azərbaycanlı hərbçinin azad edilməsi barədə razılığa gəliblər. Razılaşmaya əsasən, Azərbaycan Respublikası və Ermənistan Respublikası yaxın gələcəkdə əlavə etimad quruculuğu tədbirlərinin həyata keçirilməsi üçün müzakirələri davam etdirəcəklər.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***